**Babaxanova M.E.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.80.65-71**
**UOT: 340.12:321.7**

## Vətəndaş cəmiyyəti ideyalarının tarixi inkişafı və müasir əhəmiyyəti

**Xülasə:** Məqalə vətəndaş cəmiyyəti ideyalarının yaranması və tarixi inkişafının təhlilinə həsr olunmuşdur. Tədqiqatın əsas məqsədi konsepsiyanın fəlsəfi və hüquqi köklərini aşkar etmək, onun formalaşmasına təsir göstərən sosial-iqtisadi və siyasi amilləri üzə çıxarmaq, habelə müasir dövrdə vətəndaş cəmiyyətinin rolunu müəyyənləşdirməkdir.

Araşdırmada XVII-XIX əsr filosof və hüquqşünaslarının – K. Volf, L. Dügi, B. Konstan və digərlərinin nəzəri baxışları təhlil edilir. Onların əsərləri və ideyaları əsasında müəyyən olunur ki, vətəndaş cəmiyyəti təsadüfən deyil, uzunmüddətli intellektual axtarışlar və ictimai-siyasi inkişaf nəticəsində formalaşmışdır. Məqalədə həmrəylik konsepsiyası, təbii hüquqlar, fərdi azadlıqlar, dövlət hakimiyyətinin məhdudlaşdırılması və hüququn aliliyi kimi anlayışlar xüsusi vurğulanır.

Tədqiqat göstərir ki, vətəndaş cəmiyyəti fərdin hüquq və azadlıqlarının müdafiəsinə əsaslanır və dövlətin səlahiyyətləri yalnız hüquq çərçivəsində həyata keçirilir. Həmçinin, vətəndaş cəmiyyətinin iqtisadi əsasları da araşdırılmışdır: bazar iqtisadiyyatı, azad sahibkarlıq və demokratik institutların qarşılıqlı əlaqəsi bu ideyanın möhkəmlənməsinə şərait yaradır.

Nəticələr təsdiq edir ki, vətəndaş cəmiyyəti ideyaları XXI əsrdə də aktuallığını qorumaqdadır. Onlar hüquqi dövlətin formalaşmasına, vətəndaş fəallığının artmasına, sosial həmrəyliyin güclənməsinə və davamlı demokratik inkişafın təmin olunmasına mühüm töhfə verir.

**Açar sözlər:** vətəndaş cəmiyyəti; hüquq; dövlət; təbii hüquqlar; həmrəylik; demokratiya; bazar iqtisadiyyatı.

Ən qədim və qədim dövrlərin vətəndaş cəmiyyəti haqqında ideyaların məzmunundan aydın olur ki, bu cəmiyyət azadlıqsevərlərin, bərabərlik şəraitində yaşamaq istəyənlərin və qanunun qətiyyətli hakimiyyətinə tabe olmağa üstünlük verənlərin görmək istədiyi cəmiyyət olmuşdur. Digər tərəfdən, həmin ideyaların mahiyyətindən bəlli olur ki, vətəndaş cəmiyyəti təbii hüquqların hökmranlığı altında yaşamağa və işləməyə, cəmiyyətə fayda verməyə və eləcə də qarşılıqlı yardımı özünün vətəndaşlıq borcu hesab etməyə meyl edən insanların arzu etdiyi cəmiyyət olmuşdur. Doğrudur, yuxarıda qeyd edilənlər müxtəlif dövrlərin sadə insanlarına deyil, öz məntiqi intellektilə və yüksək biliyi ilə seçilən ziyalılara məxsus olsa da, bu ideyalar hər bir halda xalqın, insanın, bəlkə də konkret fərdin mənafeləri nöqteyi-nəzərindən irəli sürülmüşdür. Çünki hər bir ayrıca konkret fikir və ya ideya mütəfəkkir təfəkkürünə məxsus olsa da, həmin fikir və ya ideyada xalq təxəyyülünün görüntüləri, məna və mahiyyəti hökmrandır. Əks təqdirdə, hər hansı mütəfəkkir öz ideyalarının yayılmasında maraqlı olmazdı. Bu mənada vətəndaş cəmiyyəti haqqında ideyalar yüksək vətəndaşlıq mövqeyinin göstəriciləridir.

♦ **Babaxanova Mehriban Eldar qızı** – hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti (Azərbaycan). E-mail: mbabakhan@yahoo.com

Nəzərə almaq lazımdır ki, vətəndaş cəmiyyətinin qurulmasında dövlət deyil, ilk növbədə cəmiyyət üzvləri maraqlı olur. Özünün pozitiv qanunları ilə idarəetmə üsül və metodlarına üstünlük verən dövlət heç bir vəchlə tabelik (idarə edənlər və idarə olunanlar) qaydalarından əl çəkmək fikrində olmur.

Biz belə bir dövləti heç bir halda qeyri-demokratik ölkə adlandıra bilmərik. Çünki, hüququn ideologiyalaşdırılmasında son dərəcə maraqlı olan, onun əsasına xidmət edən və onu qoruyan, möhkəmləndirən dövlət qeyri-demokratik hesab oluna bilməz. Məhz elə bu məqamda bəzi təbii suallar meydana çıxır.

Hüququ özünün sütunu hesab edən dövlət bəзı nə üçün vətəndaş cəmiyyətinin yaranmasında insan qədər maraqlı deyil? Axı vətəndaş cəmiyyətində də hüquq və qanun hökmdür, lakin nəyə görəsə, dövlət cəmiyyət qədər buna meylli deyil və bununla belə, vətəndaş cəmiyyətinin qurulmasında nə üçün cəmiyyətə lazım olan dəstəyi vermir?

Yuxarıdakı sualların yalnız bir cavabı ola bilər: məhz vətəndaş cəmiyyətində hər bir konkret fərd dövlətdən daha çox qanunun hökmranlığına üstünlük verir. Beləliklə, vətəndaş cəmiyyətində (bu, həm də hüquqla qanunun qarşılıqlı əlaqəsinin çox yüksək olduğu cəmiyyətdir, azad sahibkarlar və işgüzarlar cəmiyyətidir) insan özü qanun arasında sıx qarşılıqlı əlaqənin olduğunu görür və onun qarşılıqlı məsuliyyəti də bu müstəvi üzərində bərqərar olur. Məslən, azad sahibkar çox gözəl dərk edir ki, vergiləri vaxtında ödəməsə, yaxud bundan imtina etsə, hər şey – inkişaf və tərəqqi tamamilə başqa istiqamət ala bilər. Belə şəraitdə onun arxasında artıq dövlət deyil, yaradılmasında iştirak etdiyi vətəndaş cəmiyyəti dayana bilər. Vətəndaş cəmiyyəti isə düzgün, doğrucul, saf niyyətli və cəmiyyətin mənafelərinə bütün varlığı ilə xidmət edən fərdlərin cəmiyyətidir. Deyilənlər, vətəndaş cəmiyyəti haqqında ən ilkin ideyaların məzmunundan doğur. Müasir dövrün bu qəbildən olan ideyalarının yalnız formasında fərqlər var, məzmun isə olduğu kimi qalmaqdadır.

XVII-XVIII əsrlərdə yaşayıb-yaratmış alman filosofu və hüquqşünası Xristian Bolfun təbii hüquqla bağlı ideyalarını tədqiq edən O.A. Omelçenko yazır ki, "Volfun təbii hüquq nəzəriyyəsinə görə insanların dövlət-siyasi birliyi ümumi rifaha nail olmağı nəzərdə tutur. İnsanlar vətəndaş cəmiyyətində ona görə birləşmək arzusundadır ki, ümumi faydanı birlikdə versinlər.Volfun fikrincə, ümumi rifah -bu, ən böyük xoşbəxtlikdir. Yer üzündəki hər bir insan ondan özünə uyğun şəkildə faydalana bilər" [4, s. 308].

Vətəndaş cəmiyyəti ideyasından doğan məntiqə uyğun olaraq bu, həmrəylik cəmiyyətidir. "Həmrəylik" müfhumunu elmə fransız sosioloqu və hüquq professoru Leon Düki gətirmişdir. O, XX əsrin birinci yarısında siyasi və hüquqi fikir tarixinə bir sıra yeniliklər (məsələn, "obyektiv hüquq", "pozitiv qanun") gətirmişdir. Öz ideyalarında görkəmli sələfləri olmuş O. Konta, E. Dürheymə arxalanan L. Düki siniflər arasında ictimai əmək bölgüsünün əsasını təşkil edən sosial həmrəylik konsepsiyasının inkişaf etdirmişdir. Onun təliminə uyğun olaraq "cəmiyyət insanları həmrəylik əsasında birləşdirən əlaqələrdən təşəkkül tapır" [2, s. 191].

Mütəfəkkirin ideyasına görə siniflərin və sosial qrupların əməkdaşlığı həmrəyliyə əsaslanan sosial normalarla tənzimlənir. S.A.Rubanikin fikrincə, L.Dükinin haqqında danışığı sosial həmrəylik faktı fərdlər tərəfindən dərk edilir və sosial həmrəylik norması doğurur. Heç nə etməmək sosial ədalətin pozulması deməkdir [5, s.180].

Fikrimizcə, vətəndaş cəmiyyəti ideyası kimi, həmrəylik norması da əxlaq norması deyil, hüquq normasıdır. Belə ki, o, insan iradəsinin ancaq zahiri təzahürünə aiddir. Vətəndaş cəmiyyətində mövcud olan və fəaliyyət göstərən normalar kimi, həmrəylik norması da dövlətdən və pozitiv qanunvericilikdən yüksəkdə durur (cəmiyyəti idarəetmə nöqteyi-nəzərindən). Vətəndaş

cəmiyyətində dövlət də, pozitiv qanunvericilik də cəmiyyətin varlığına xidmət edirlər. Eləcə də, sosial həmrəylik norması fərd üçün "sosial vəzifəni, öhdəliyi" yalnız yerinə yetirmək hüququnu yaradır.

Vətəndaş cəmiyyəti ideyası siyası ənənələrin yetirmələrindən biridir. Bu isə o deməkdir ki, o, birdən-birə və ya özbaşına meydana gəlməmişdir. Vətəndaş cəmiyyəti ideyasının bilavasitə özü Qərbin siyasi-hüquqi ənənəsinin başlıca və əsas mövzularına toxunaraq onları əhatə edir. İlk dəfə XVIII əsrdə sosial qarşılıqlı əlaqə mühitinə istinad edən bir amil kimi irəli sürülən bu anlayış XIX əsrdə dövlət mühitindən kənarda mövcud olan sosial mühiti səciyyələndirərək onu əks etdirirdi. Özünün müxtəlif formalarda ifadə tərzində o, son 200 il ərzində siyasi təfəkkürü müəyyənləşdirməyə xidmət etmiş icma və fərdiyyətçilik elementlərinə istinad etmişdir. əsas məqsəd elə bir doktrina yaratmaqdan ibarət idi ki, o, şəxsiyyətin və sosial qrupların hüquqlarını kral hakimiyyətinin mütləqiyyətindən müdafiə etsin. Bu məqsədə nail olmağın vasitələrinə aşağıdakılar aid olunurdu:

1) Dövlət hakimiyyətinin müsbət qanunlarla məhdudlaşdırılması;
2) Dövlət hakimiyyəti funksiyalarının müxtəlif orqanlar arsında bölüşdürülməsi vasitəsilə hakimiyyət orqanlarının məhdudlaşdırılması;
3) Qanunvericilik və dövlətin idarə edilməsi sferasında iştirak da daxil olmaqla, vətəndaşların müəyyən siyası hüquqlarının tanınması [1, s. 7].

Cəmiyyət haqqında nəzəriyyəni izah etmək nöqteyi-nəzərindən XVIII və XIX əsrlərdə edilmiş klassik cəhdin mərkəzində duran da bu günkü sosial- siyasi həyatın ən mühüm məsələlərini aydınlaşdırmaqda davam edən bu problemlər toplusu olmuşdur. Ümumiyyətlə, vətəndaş cəmiyyətini mümkün edən amil elə azad və bərabərhüquqlu vətəndaşların, müstəqil fərdin və özəl bir təbəqənin mövcudluğudur. Çünki vətəndaş cəmiyyəti əsas etibarilə elə bir mühitdir ki, həmin mühitdə konkret şəxs, yəni öz ehtiyaclarına, xüsusən də fiziki ehtiyaclarına tabe olan fərd özünün sevib-bəyəndiyi məqsədlərə nail olmağa çalışır.

Beləliklə, vətəndaş cəmiyyətində qarşılıqlı münasibətlər özəl məzmunu ilə diqqəti cəlb edir. Yəni vətəndaş cəmiyyəti sosial iştirakçıların qarşılıqlı münasibətlərini fərqləndirə biləcək dərəcədə seçilən ictimai mühitdir. Bu da təsadüfi deyil, çünki özəl sferanın olmadığı yerdə sosial sfera da yoxdur. Bunun mahiyyəti isə ondan ibarətdir ki, özəl sfera ilə sosial sfera arasında dialektik vəhdət olmalıdır. Məhz belə dialektik vəhdədin olduğu şəraitdə şəxsiyyətin mülki və siyasi hüquqlarının tam mənada müdafiə edə bilən cəmiyyət haqqında danışmaq olar. Şəxsiyyətin mülki və siyasi hüquqlarının lazımi səviyyədə müdafiəsi isə son dərəcə vacib məsələdir.

Vətəndaş cəmiyyəti ideyası çərçivəsində şəxsiyyətin mülki və siyasi hüquqlarının müdafiəsi XIX əsrin birinci yarısında konstitusion doktrinanın əsas nümayəndələrindən olan fransız yazıçısı, publisisti və siyasətçisi Benjamin Konstanı suverenliyin hüdudsuzluğu ideyasını inkar etməyə gətirib çıxardı. Onun fikrincə, cəmiyyətin bütövlükdə öz üzvlərinə münasibətdə hüdudsuz suverenliyə malik olması haqqında düşünmək səhv olardı. Suverenliyin yurisdiksiyası fərdi həyatın və şəxsi müstəqiliyyin başlandığı yerdə sona çatır. K.K. Jol yazır ki, B. Konstanın vətəndaş azdlığı hüquqlarına diqqət yetirməsi xüsusi əhəmiyyət kəsb edirdi. Mütəfəkkir belə güman edirdi ki, Yeni dövrün xalqları vətəndaşlara nəinki dövlət hakimiyyətində iştirakına imkan verilməsini tələb edir, eyni zamanda da vətəndaş hüquqlarına dövlətin müdaxilə etməsinə qarşı çıxırdılar. B. Konstan dövlət suverenliyinin hüdudunu həmin hüquqlarda görürdü [3, s. 363].

Vətəndaş cəmiyyəti insanların mülki və siaysi hüquqlarının qanuni çərçivədə olmasını, hər şeyin qanun daxilində olduğunu əks etdirən cəmiyyətdir və buna görə də belə cəmiyyət eyni zamanda da yüksək demikratiyanın bariz göstəricisidir.

Maddi bolluq, firavan həyat və cəmiyyətin demokratik quruluşu arasında qarşılıqlı əlaqə XX əsrin ikinci yarısında bütün dolğunluğu ilə üzə çıxdı. Bunu qismən demokratiyanın zirvədə olduğu vətəndaş cəmiyyəti ilə bazar iqtisadiyyatı arasındakı aşağıdakı münasibətlərlə izah etmək olar:

1) Dövlət özünü iqtisadi sferanın tənzim etmək işindən demək olar ki, tamamilə kənarlaşdırır;

2) İşçilər öz iş yerlərini sərbəst şəkildə dəyişə bilmir;

3) Sahibkarlar satış bazarının genişləndirilməsi və iqtisadi ehtiyatlara qənaət edilməsi uğrunda vicdanla rəqabət aparırlar;

4) İstehlakçının, öz aralarında rəqabət aparan istehlakçıların təklif etdikləri mallar və xidmətlər arasında seçim etmək imkanı yaranır.

XX əsrin sonlarına doğru tarixi inkişaf gedişində belə bir qanunauyğunluq meydana çıxdı: bazar iqtisadiyyatını uğurla tətbiq edən və inkişaf etdirən ölkələrin heç birində hələ də vətəndaş cəmiyyəti ideyası öz həyati reallığını (yəni belə bir cəmiyyət qurulmayıb) tapmayıb.

Cəmiyyət və dövlətlərin inkişaf tarixi təsdiq edir ki, son 200 il ərzində bazar iqtisadiyyatı digər iqtisadiyyat formalarının hər hansı birindən qat-qat çox firavanlıq gətirib. Beləliklə, qədim bir müdrik kəlamı başqa şəkildə ifadə etməklə söyləməkdə haqlı olaraq: bir halda ki, inkişaf etmiş bütün ölkələr bazar iqtisadiyyatına malik olan ölkələrdir, bazar iqtisadiyyatına malik olan ölkələr bir qayda olaraq, firavan yaşayır, deməli, müasir inkişaf etmiş ölkə - varlı ölkədir. Göründüyü kimi, kəlam formal məntiqin sillogizminə tam uyğundur.

Vətəndaş cəmiyyəti ideyasından doğan mənaya görə, demokratik quruluşa malik olan ölkələrin qeyri-demokratik sistemlərlə müqayisədə adətən, digər iqtisadi üstünlükləri də olur. Vətəndaş cəmiyyəti ideyası ilk növbədə mövcud olduğu olduğu ölkədə elə bir mühit formalaşdırır ki, bu mühitdə dövlət öz vətəndaşlarının təhsilə olan meylini həvəsləndirir, bilikli fərdlər isə elmi-texniki tərəqqiyə və deməli, sosial-iqtisadi və mədəni yüksəlişə kömək edir. Bundan savayı, vətəndaş cəmiyyəti ideyasından faydalanan demokratik ölkələrdə dövlətin qanunlarına daha çıx riayət olunur, məhkəmələr daha müstəqil fəaliyyət göstərir, vətəndaşların mülkiyyət hüquqları daha müdafiə və mühafizə olunur, müqavilə öhdəlikləri qeyd-şərtsiz yerinə yetirilir. ən başlıca olanlardan biri isə budur ki, iqtisadi proseslərə hökümətin və ya özbaşına hərəkət edə biləcək siyasətçilərin müdaxiləsi inandırıcı görünmür.

Nəhayət, müasir iqtisadiyyatın yüksək səmərəliliyi bir çox cəhətdən informasiya mübadiləsindən asılıdır, demokratik əsaslara söykənən cəmiyyətlərdə isə, kommunikasiya “sədləri” qat - qat aşağıdır. İnformasiyanı axtarmaq və vermək, informasiya mübadiləsi aparmaq qeyri-demokratik cəmiyyətlərin əksəriyyətində olduğundan asan və xeyli təhlükəsizdir.

Nəticədə, ümumi qaydadan bəzi istsnalara baxmayaraq, müasir demokratik cəmiyyətlərdə sərbəst bazar iqtisadiyyatının üstünlüklərindən yararlanmaq və iqtisadi artıma nail olmaq üçün daha əlverişli şərait yaradılır. Vətəndaş fəallığı da öz növbəsində buna təkan verir. Bununla da iqtisadi artımla vətəndaş fəallığının qarşılıqlı vəhdəti yaranır.

Qeyd etmək zəruridir ki, müasir demokratik sistem və sərbəst bazar iqtisadiyyatı arasında mövcud olan qarşılıqlı əlaqə hər ikisinə eyni dərəcədə üstünlük versə də, bazar iqtisadiyyatı vətəndaş cəmiyyəti üçün xeyli baha başa gəlir. Çünki o, əmlak bərabərsizliyi yaradır, bu isə ona

gətirib çıxara bilər ki, demokratik dövlətin bütün vətəndaşlarının tam siyasi bərabərliyinin dərqərar olması çətinləşir.

Vətəndaş cəmiyyəti ideyası haqqında danışarkən ilk növbədə bu ideyanın keçdiyi tarixi yolun uzun olduğunu nəzərə almaqla belə bir nəticəyə gəlmək olar ki, bilavasitə vətəndaş cəmiyyətinin özü barəsində tam mənada cavab vermək çətindir. Tarixi materialların öyrənilməsi aşaöıdakı yekun nəticələrə gətrib çıxarır:

- vətəndaş cəmiyyəti özünün yayılması miqyasına görə genişəhatəlidir;
- vətəndaş cəmiyyəti öz barəsində təşəkkül tapmış ideya və müddəaların diffuziyaya uğramasına borcludur;
- diffuziyanın bilavasitə özü də vətəndaş cəmiyyəti fenomeninin tam izahını verə bilməz.

Yuxarıdakı nəticənin ümumiləşdirilmiş cavabı bundan ibarət ola bilər ki, müəyyən məkanda və müəyyən zamanda vətəndaş cəmiyyətinin bərqərar olması üçün əlverişli tarixi şərait yetişməlidir. Bu çərçivəyə müvafiq cəmiyyət-dövlətin sosial-iqtisadi, siyasi, hüquqi və mədəni səviyyəsi də daxil edilməlidir. Əlbəttə, bu prosesdə hər hansı ölkənin və müəyyən sivil cəmiyyətin zəruri sferalarda beynəlxalq əlaqələri də istisnalıq təşkil edə bilməz. Nəhayət, vətəndaş cəmiyyətinin bərqərar olması üçün tarixi zəminlərin və müqəddəm şərtlərin olması da vacibdir.

Beləliklə, verimiş təhlilləri yekunlaşdıraraq bu nəticəyə gəlmək olar ki, vətəndaş cəmiyyəti ideyası tarixən təşəkkül tapan, cəmiyyətin inkişaf mərhələlərinə uyğun hər bir müvafiq dövrdə özünəməxsus yeni məzmun əldə edən və cəmiyyətin inkişaf tələbatlarına uyğun şəkildə müəyyən dəyişikliklərə məruz qalan ideya kimi formalaşmışdır.

Vətəndaş cəmiyyəti haqqında ideyalar birdən-birə və öz-özünə, yaxud kor-koranə şəkildə deyil, insan zəkasının və dərin intellektinin yüksək dəyərə malik mənəvi şərtlərindən biri kimi təşəkkül tapmışlar. Həmin ideyalar yüzillikləri, hətta minillikləri adlayaraq döbvrümüzədək cilalana-cilalana gəlib çatmışdır olmuşdur.

## Biblioqrafiya

1. Верховенство права. /пре. с. англ. - М.: Прогресс, 1999. - 213 с.
2. Дюги Л. Общество, личность и государство: Социальное право, индивидуальное право и преобразование государства. Лекции прочитанные в высшей школе социальных наук в Париже. - СПб, 1964. - 248 с.
3. Жоль К.К. Философия и социология права. Учебное пособие. - М.: Юнити, 2005. - 415 с.
4. Омельченко О.А. История политических и правовых учений. Учебник. - М.: Эксмо, 2011. - 576 с.
5. Рубаник С.А. История политических и правовых учений. Академический курс. Учебник. - М.: Юрайт. 2012. - 477 с.

***Məqalə daxil olmuşdur:*** *22 sentyabr 2025-ci il*
***Çapa qəbul edilmişdir:*** *29 sentyabr 2025-ci il*

**Babakhanova M.E.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.80.65-71**
**UDC: 340.12:321.7**

## The Historical Development of Civil Society Ideas and Their Contemporary Significance

**Abstract:** The article is devoted to the study of the origins and historical development of civil society ideas. The main objective is to identify the philosophical and legal foundations of the concept, determine the socio-economic and political factors that shaped it, and assess its relevance in the modern era.

The research examines the theoretical contributions of philosophers and jurists of the 17th–19th centuries, including C. Wolff, L. Duguit, B. Constant and others. It is emphasized that civil society did not emerge spontaneously but as the result of a long intellectual process and socio-political transformation. Key concepts such as natural rights, the rule of law, separation of powers, solidarity and individual freedoms are analyzed in detail.

The findings demonstrate that civil society is a sphere where the priority is given to the protection of individual rights and freedoms, while state authority is limited by law and democratic institutions. The article also explores the economic dimension, highlighting that the rise of market economy and free enterprise historically supported the development of democratic governance and the consolidation of civil society.

The results confirm that the ideas of civil society remain highly relevant in the 21st century. They contribute to the establishment of the rule of law, the strengthening of democracy, the promotion of civic engagement, and the creation of sustainable social solidarity, thereby playing a vital role in ensuring long-term democratic development.

**Key words:** civil society; law; state; natural rights; solidarity; democracy; market economy

### References

1. Rule of Law. Moscow: Progress Publ., 1999, 213 p. (in Russian).
2. Duguit, L. Society, the Individual and the State: Social Law, Individual Rights and the Transformation of the State. Lectures at the Higher School of Social Sciences, Paris. St. Petersburg, 1964, 248 p. (in Russian).
3. Joll, K.K. Philosophy and Sociology of Law. Moscow: Unity Publ., 2005, 415 p. (in Russian).
4. Omelchenko, O.A. History of Political and Legal Doctrines. Moscow: Eksmo Publ., 2011, 576 p. (in Russian).
5. Rubanik, S.A. History of Political and Legal Doctrines: Academic Course. Moscow: Yurayt Publ., 2012, 477 p. (in Russian).

***The article was submitted:*** *2025 September 22*
***Accepted for publication:*** *2025 September 29*

♦ **Babakhanova Mehriban Eldar** - PhD in Law, Associated Professor, Azerbaijan University of Languages International Relations Departement (Azerbaijan). E-mail: mbabakhan@yahoo.com

**Бабаханова М.Э.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.80.65-71**
**УДК: 340.12:321.7**

## Историческое развитие и современное значение идей гражданского общества

**Аннотация:** Статья посвящена исследованию истоков и исторического развития идей гражданского общества. Основная цель — выявить философско-правовые основы этой концепции, определить социально-экономические и политические факторы, сформировавшие её, и оценить её актуальность в современную эпоху.

В исследовании рассматриваются теоретические труды философов и юристов XVII–XIX веков, включая К. Вольфа, Л. Дюги, Б. Константа и других. Подчеркивается, что гражданское общество возникло не стихийно, а в результате длительного интеллектуального процесса и социально-политической трансформации. Подробно анализируются такие ключевые концепции, как естественные права, верховенство права, разделение властей, солидарность и личные свободы.

Результаты исследования показывают, что гражданское общество — это сфера, где приоритет отдаётся защите прав и свобод личности, а государственная власть ограничена законом и демократическими институтами. В статье также рассматривается экономический аспект, и подчёркивается, что становление рыночной экономики и свободного предпринимательства исторически способствовало развитию демократического управления и консолидации гражданского общества. Результаты подтверждают, что идеи гражданского общества сохраняют свою высокую актуальность в XXI веке. Они способствуют установлению верховенства права, укреплению демократии, развитию гражданской активности и формированию устойчивой социальной солидарности, играя тем самым жизненно важную роль в обеспечении долгосрочного демократического развития.

**Ключевые слова:** гражданское общество; правовое государство; естественные права; солидарная демократия; рыночная экономика.

***Дата поступления:*** *22 сентября 2025 г.*
***Дата принятия в печать:*** *29 сентября 2025 г.*

♦ **Бабаханова Мехрибан Эльдар гызы** - доктор философии по праву, доцент кафедры международных отношений Азербайджанского университета языков (Азербайджан). E-mail: mbabakhan@yahoo.com